**UOT 327**

***Əlimusa İbrahimov,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru,***
***Bakı Dövlət Universitetinin***
***Beynəlxalq münasibətlər fakültəsinin müəllimi***
***ialimusa@mailru***

# İRAN İSLAM RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİ

**Annotasiya**

Məqalədə müasir dövrdə İran İslam Respublikasının xarici siyasətinin prioritet istiqamətləri nəzərdən keçirilir. Müəllif İran ətrafında yaranmış ümumi geosiyasi mənzərəni nəzərdən keçirərək, rəsmi Tehranın dünyanın böyük dövlətlərinə münasibətdə xarici siyasətinin əsas prinsiplərinə aydınlıq gətirir. İranın beynəlxalq münasibətlərin aktorları ilə münasibətlərində son onilliklərdə baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.

***Açar sözlər:*** *İran, islam, region, təhlükəsizlik, Qərb, iqtisadi realizm, ideoloji dəyərlər, konfederasiya.*

# KEY FOREIGN POLICY PRIORITIES OF ISLAMIC REPUBLIC OF IRAN

**Annotation**

The article discusses the priorities of the foreign policy of the Islamic Republic of Iran in the modern era. The author examines the general geopolitical landscape around Iran and explains the basic principles of Tehran’s foreign policy towards the leading powers of the world. Special attention is paid to the recent changes in Iran’s relations with subjects of international relations.

***Keywords:*** *Iran, Islam, region, security, West economic realism, ideological values, confederation.*

## *Giriş*

Son bir neçə əsr ərzində İranın xarici siyasətinə beynəlxalq sistem və ölkənin coğrafi mövqeyi böyük təsir göstərmişdir, lakin 1979-cu il İslam İnqilabının qələbəsindən sonra İranın beynəlxalq siyasətinin formalaşmasında daxili amillər, xüsusilə ideoloji məqsədlər xarici amillərdən daha çox rol oynayır. Daxili siyasətdəki dəyişikliklər İranın xarici siyasətində dəyişikliklərə birbaşa müəyyənedici təsir göstərir. İranın xarici siyasəti özünün dini xarakterinə görə beynəlxalq münasibətlərə dair geniş yayılmış nəzəriyyələri birmənalı şəkildə tətbiq etməyə imkan verməyən xüsusiyyətlərə malikdir. Beynəlxalq münasibətlərin geniş yayılmış nəzəriyyələri son 40 ildə İranın İslam Respublikasının beynəlxalq səhnədə bir çox hərəkəti izah etməyə qadir deyildir. Məsələn, realizm beynəlxalq münasibətlərin geniş yayılmış nəzəriyyəsi kimi dövlətlərin beynəlxalq siyasətini onların sabit xarakteristikalarına əsaslanaraq izah etməyə çalışır. Realist yanaşmaya görə, müdrik aktor öz maraqlarını maksimum təmin etməyə can atır. Buna görə də öz mənafelərini təmin etməyə çalışan ölkələrdən ibarət müasir beynəlxalq sistemdə hö-

kumətlərin əsas vəzifəsi əxlaqi standartlara riayət etmək deyil, təmsil etdikləri ölkələrin maraqlarını həyata keçirməkdən ibarətdir. Beləliklə, ölkələrin davranışı milli maraqlar əsasında izah olunur və müəyyən edilir [2]. Bəzi ekspertlər hesab edirlər ki, realizm İran İslam Respublikasının xarici siyasətinin bütün aspektlərini açıqlaya bilməz, çünki bir çox hallarda İranın xarici davranışı realizm məntiqinə uyğun gəlmir. Milli maraqlar anlayışı maddi rifahın yaradılmasının şərtidir. Lakin İran İslam Respublikasının milli maraqları maddi maraqlarla məhdudlaşmır, eyni zamanda qeyri-maddi və ideoloji dəyərlər kimi digər sahələri əhatə edir. Buna görə də İranın xarici siyasəti İslam ideologiyasından asılı olması səbəbindən, əksər hallarda milli mənafelərin təmin edilməsi və rasional davranış kimi şərh edilmir.

İqtisadi liberalizmin nəzəriyyəsi iqtisadiyyatın və siyasətin qarşılıqlı təsirinə əsaslanan siyasi-iqtisadi yanaşmadır. Bu düşüncə tərzinə görə, liberal daxili iqtisadi sistemin və beynəlxalq səviyyədə iqtisadi nizam dinc xarici siyasətin qəbul edilməsinə gətirib çıxarır, çünki müasir ölkələrin xarici davranışı üçün ən mühüm motiv iqtisadi uğurdur və liderlər öz xalqının maddi və iqtisadi rifahını digər mülahizə və məqsədlərdən üstün tutur [34, s.612-692]. Lakin iqtisadi liberalizm nəzəriyyəsi İran İslam Respublikasının xarici siyasətini izah edə bilməz. Təcrübə göstərir ki, İranın xarici siyasətinin formalaşmasında maddi rifah, iqtisadi inkişaf kimi iqtisadi mülahizələr və məqsədlər əsas rol oynamır, iqtisadi inkişaf İranın xarici siyasət iyerarxiyasında prioritet mövqe tutmur. Son dörd onillikdə İranda texnokratların mövqeləri güclənsə də, onların tələblərinə uyğun olaraq Qərb ölkələri ilə ziddiyyətlərin aradan qaldırılmasına və dünya iqtisadiyyatına inteqrasiyaya yömnəlmiş xarici siyasət məqsədləri formalaşmamışdır. Buna görə də neorealizm və ya liberalizm kimi rasional nəzəriyyələr İranın davranışını yalnız qismən izah edə bilər və bütövlükdə İranın siyasətini təhlil etmək üçün bu ölkədə hakimiyyət strukturunun sosial əsaslarını nəzərdən keçirmək zəruridir.

### *Xarici siyasətin iqtisadi siyasətə təsiri*

Aydındır ki, xarici siyasət yalnız maddi münasibətlər çərçivəsində açıqlana bilməz. Mədəni və ideoloji məqsədlər də xarici siyasət üçün rəhbər göstəriş ola bilər [30]. Beləliklə, konstruktivizm nəzəriyyəsi beynəlxalq münasibətlərin digər nəzəriyyələri ilə müqayisədə İranın xarici siyasətini daha yaxşı izah edə bilər. İranın xarici siyasətinin təhlili üçün bu nəzəriyyənin seçilməsi ölkələrin xarici siyasətində inanclara verilən əhəmiyyətə görə vacibdir.Bu baxımdan tədqiqatımızda xarici siyasətin təhlilində mühüm rol oynayan dəyərlərə, fikirlərə və onların xarici siyasətə təsirinə məhz belə yanaşma əsas götürülmüşdür [18, s.420-421].

Konstruktivizmdə aktorun mental mühitinin dərki xarici siyasət davranışını anlamaq üçün vacibdir. İranın xarici siyasət davranışını öyrənərkən bu ölkənin dəyərlərinin və inanclarının xarici siyasətdə əks olunmasına, habelə İranın xarici siyasətinin formalaşmasında özünüeyniləşdirmənin və milli mədəniyyətin roluna diqqət yetirmək zəruridir [21, s.442]. Eyni zamanda, İran İslam Respublikasının xarici siyasətinin eyniləşdirmə mənbələri İslam və şiəlik, İranın tarixi və mədəniyyəti, bu ölkənin coğrafi mövqeyi çərçivəsində nəzərdən keçirilə bilər. Bütün bunlar beynəlxalq siyasətdə İran davranışı-

nın müəyyənedici komponentləridir. Aydındır ki, İran İslam İnqilabının rəhbərlərinin dini xüsusiyyəti səbəbindən, dini özünüeyniləşdirmənin və İslam dəyərlərinin xarici siyasətə təsiri digər amillərin təsirindən daha dərindir. İranda dini hakimiyyət iqtidardadır və təbii ki, bu hakimiyyətin yönümünü müəyyənləşdirən əsas element məhz dindir.

Din və siyasətin qarşılıqlı münasibətləri baxımından qeyd olunmalıdır ki, din İranın xarici siyasətinə böyük təsirə malikdir. Bu, İran Konstitusiyasından irəli gəlir. İran İslam Respublikasının siyasətindən danışarkən ən mühüm anlayış siyasi sahəyə ən çox təsir göstərən norma və dəyərlərin məcmusunu müəyyən edən “İslam” anlayışıdır. Başqa sözlə ifadə etsək, İran İslam Respublikasının xarici siyasət maraqlarını və məqsədlərini məhz “islami özünüeyniləşdirmə” müəyyən edir. Beləliklə, bu yanaşma çərçivəsində milli maraqlar milli iqtisadi məqsədlər, zərərlər və mənfəətlər əsasında deyil, İslam dəyərləri əsasında müəyyən edilir [26, s.206-262]. Dinin İranın xarici siyasətinə təsirinin bəzi istiqamətlərini qeyd edək:

– İran öz xarici siyasətində milli sərhədlər əvəzinə ideoloji sərhədlərə diqqət yetirir. İdeoloji xarici siyasət ərazi yurisdiksiyasının hüdudlarından kənara çıxır və coğrafi sərhədləri önəmsiz hesab edir [35, s.115-138]. İslam prizmasından beynəlxalq sistemə baxdıqda dünya dövlətlərdən deyil, iki qütbdən: zalımlardan və məzlumlardan ibarətdir; [23, s.66].

– İranın xarici siyasətində ədalət ali dəyər kimi qiymətləndirilir. İslam İslamı qəbul edənə qədər ədalət iranlıların özünüeyniləşdirməsinin əlamətlərindən biri idi. İslam və şiəliyin gəlişi ilə iranlıların daxili əsası kimi ədalət yeni qüvvə kəsb etdi, bütövlükdə ədalət ruhu iranlıların şiəliyə yönəlməsinin səbəblərindən biri oldu. İslama görə, “ədalət” prinsipinin coğrafi hüdudları yoxdur, islam dövləti ədalət anlayışı və bütün insanların hüquqlarının qorunması ilə əlaqələndirilir. İslam ədalətdən ali dəyər tanımır, İslam dövləti ədalətsizliyin ədalət üzərində üstünlüyünü qəbul etməməlidir [16, s.16-41]. Beləliklə, ədalət istəyi İslam mədəniyyətinin dəyərlərindən biri kimi İranın xarici siyasətinin məqsədlərindən birinə çevrilmişdir. Onun təsirini bütün dünyanın məzlumlarına xüsusi dəstək verilməsində və ya azadlıq hərəkatlarının dəstəklənməsində görmək mümkündür;

– dinin İranın xarici siyasətinə digər təsirini “fiqh”, yəni “hökmranlığın inkarı” prinsipində görmək mümkündür. Bu prinsipə görə, qeyri-müsəlmanlar müsəlmanlar üzərində hökmran olmamalıdır. “Hökmranlığın inkarı” müsəlmanlar və qeyri-müsəlmanlar arasında münasibətlərin qurulmasında əsas qaydadır. Bununla əlaqədar qeyri-müsəlmanların müsəlmanlar üzərində hökmranlığına əsaslana bilən hər hansı – siyasi, iqtisadi və ya hərbi müqavilənin bağlanması etibarsız hesab olunur. Müsəlmanların müqəddəs kitabı Qurani-Kərimə görə, “Allah heç vaxt kafirlərə mö’minlərin əleyhinə olan bir yol göstərməz!” [10]. (“سوره مبارکه نساء: آیه ( "لَن يَجعَلَ اللهُ لِلكافِرينَ عَلَيَ المومِنينَ سَبيلاً" )”, Ən-Nisa surəsi, 141-ci ayə).

***Beynəlxalq təşkilatlar və İranın xarici siyasəti***

Şübhəsiz, BMT Təhlükəsizlik Şurasının, İnsan Hüquqlarının Müdafiəsi Şurasının, Beynəlxalq Atom Enerjisi Agentliyinin İdarəçilər Şurasının bəzi qətnamələrinin qəbul edilməməsi və ABŞ kimi bəzi qüdrətli ölkələrin təzyiqinə müqavimət məhz İran liderlərinin inancına əsaslanan bu qayda ilə bağlıdır. Yaxın Şərqə dair sülh planı, ABŞ-ın İraq və Əfqanıstanın ələ keçirməsi ilə bağlı İranın mövqeyi də bu baxımdan aydındır. İran hökuməti üçün bu məsələlər qeyri-müsəlmanların müsəlmanlar üzərində hökmranlığının nümunəsidir.

Ən qədim ölkələrdən biri olan İranın mədəniyyəti, sivilizasiyası və tarixi dünya sivilizasiyasına təsir göstərərək, mədəni amillərin xarici siyasətə dərin təsirini şərtləndirir. İranın çoxəsrlik tarixinə mədəniyyətin, sivilizasiyanın, güclü imperiyaların inkişafı ilə yanaşı, xarici təcavüzlər, istilalar və dağıntılar məlumdur [22, s.605- 612]. Çoxəsrlik mədəniyyətlə bağlı qürur hissi və İran imperiyasının dünya məkanının böyük bir hissəsini əhatə etməsi və güclü təsirə malik olması iranlıların sarsılmaz mədəni xüsusiyyətlərindən biri olmuşdur. Buna əsasən iranlılar özlərini qədim İran mədəniyyətinin daşıyıcısı hesab edirlər və hətta bəzi hallarda qonşuları üzərində dərin üstünlüyə malik olduqlarını düşünürlər. İranın ən güclü hakim sülaləsi olmuş Əhəmənilər İran tarixində ən böyük imperiya yaratmışdılar. II Kir müxtəlif xalqları vahid dövlətin hakimiyyəti altında toplaya bilmişdi [32, s.424- 640]. Buna görə də bəzi tədqiqatçıların fikrincə, iranlılar şüuraltı olaraq imperiyanın keçmiş şöhrətini dirçəltməyə can atırlar. Amerikalı politoloq Qrehem Fuller qeyd edir ki, İranın keçmiş əzəmətinin acı xatirəsi olan müasir sərhədlər İranın iddialarına cavab vermir [31, s.622]. Politoloq Riçard Katm yazır:

*"İran ədəbiyyatı parlaq ulduq kimi yalnız iranlıların ürəklərinə və zehninə işıq saçmır, həm də bütün müsəlman aləminin mədəni irsində və Hind yarımqitəsində parlayır" [19, s.61].*

Politoloq və tarixçi Şirin Hanterin fikrincə, İranın liderləri son onilliklərdə İranı Yaxın Şərq regionunda fövqəldövlətə çevirməyə çalışırlar [1, s.189]. Amerikalı keçmiş diplomat David Fhillipsin fikrincə, İran bu ölkənin regional güc kimi tanınmasına can atır [25]. Amerikalı alim Ceffri Kampın fikrincə, ABŞ İrana hörmətlə yanaşarsa, bu ölkənin liderləri radikal xarici siyasətini yenidən nəzərdən keçirə bilərlər [5,6, s.80]. Bu amilin ən əhəmiyyətli təzahürü 2025-ci ilə qədər İranın inkişaf perspektivləri haqqında sənəddə görmək mümkündür. Bu sənəddə İran Yaxın Şərqdə iqtisadiyyat, elm və texnika sahəsində birinci yeri tutan, islam və inqilabi kimliyə malik olan, habelə beynəlxalq münasibətlər sahəsində konstruktiv siyasət yürüdən inkişaf etmiş ölkə kimi təsvir olunur [24].

İranlıların tarixi yaddaşı tənəzzül və məğlubiyyətləri də unutmur. Y.e.ə. 330-cu ildə Makedoniyalı İsgəndərin və Çingiz xanın hücumları İran böyük ziyan vurmuşdur. Müasir tarixdə İranda dünya dövlətlərinin iştirakı da iranlılar üçün acı təcrübə olmuşdur. Birinci və İkinci Dünya müharibələrində İranın işğalı, 1921-ci ildə mütləq monarxiyanın davam etdirilməsinə gətirib çıxaran çevriliş [12, s.91-15] və 1953-cü ildə Birləşmiş Ştatlar və İngiltərə tərəfindən Məhəmməd Müsəddiq hökumətinə qarşı hazırlanan çevriliş xarici güclər tərəfindən İrana qarşı yönələn digər təcavüz aktları olmuşdur [9, s.610-619]. Bu acı təcrübə İranın böyük dövlətlərlə münasibətlərində şübhələrə və inamsızlığa

gətirib çıxardı. Qrehem Fuller bunu "fars ksenofobiyası" adlandırır [31, s.290-292]. Çiçəklənmə və tənəzzül dövrlərinin müqayisəsi beynəlxalq siyasət səhnəsində iranlıların müəyyən davranışı üçün təkan ola bilər. Həqiqətən, İranın Qərbə qarşı düşmənçiliyi və müstəqillik arzusu tarixi təcrübədən və iranlıların keçmişindən təsirlənmişdir.

Üçüncü dünyaya can atma soyuq müharibə günlərindən qalmış diskursdur və iranlıların fikirlərində mühüm yer tutur, çünki bu diskurs antiimperialist və antihegemon xarakter daşıyır. Bu fikirlər mövcud siyasi-iqtisadi sistemə ziddir və üçüncü dünya ölkələrinin və ya inkişaf etməkdə olan ölkələrin maraqlarını təmin edəcək arzuolunan vəziyyətin əldə olunmasına yönəlmişdir [13, s.451- 492].

İran üçüncü dünyaya can atma diskursu üçün bütün zəruri şərtlərə malikdir. Birincisi, o, beynəlxalq iqtisadi sistemin kənarında yerləşir. İkincisi, İran heç zaman müstəmləkə olmamasına baxmayaraq, Rusiya imperiyası, Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatları kimi böyük dövlətlərin güclü təsiri altında olmuşdur, buna görə də üçüncü dünya ölkələrinin müstəmləkə təcrübəsi ilə bir çox ümumi cəhətlərə malikdir. Üçüncüsü, İran həmişə beynəlxalq münasibətlərdə təftişçiliyə meylli olmuşdur. Qədim İranın böyük mədəni və siyasi təzahürlərinin qeyd edilməsi həmişə İranın beynəlxalq sistemdə mövcud mövqeyindən narazılığının səbəbi olmuşdur. Buna görə də məhz üçüncü dünyaya can atma ideoloji cəhətdən iranlıların özünüeyniləşdirməsinin digər elementləri ilə uzlaşır və İranın xarici siyasətinə əhəmiyyətli təsir göstərir.

Geosiyasət müxtəlif: yerli, regional və beynəlxalq. səviyyələrdə siyasi və ictimai həyatın bütün sahələrinə təsir göstərir. Amerika geosiyasətçisi Nikolos Spaykmen hesab edir ki, hər hansı bir ölkənin xarici siyasətinin onun coğrafiyasından təcrid olunmuş vəziyyətdə öyrənilməsi mümkün deyildir [17, s.15]. Coğrafi və geosiyasi mövqeyi baxımından İran xarici siyasətə təsir göstərən unikal xüsusiyyətlərə malikdir. İran həmişə dünya güclərinin marağını cəlb edən və beynəlxalq əlaqələrdə mühüm rol oynayan ölkədir. Birincisi, bu ölkə dünyanın üç qitəsinin:Asiya, Avropa və Afrikanın qovuşuğunda yerləşir, yəni ənənəvi olaraq Qərb və Şərqin maraqlarının kəsişmə məkanına çevrilmişdir. Məhz buna görə də Qrehem Fuller İranı "dünyanın mərkəzi" adlandırır [31, s.16-22]. İran bu mövqeyi səbəbindən beynəlxalq güc iddiaları ilə çıxış edir və daim xarici təhdidlərə, müdaxilələrə və hücumlara məruz qalır.

İkincisi, İran xüsusi strateji geoiqtisadi mövqeyindən faydalanır. İran dünya enerji istehsalının və istehlakının kəsişmə mərkəzində yerləşir. İranın şimalında və cənubunda Fars körfəzinin, Qafqazın və Mərkəzi Asiyanınmühüm enerji mərkəzləri yerləşir. İrandan Qərbdə və şərqdə isə enerji istehlakı regionları olan Şərqi Asiya və Avropa yerləşir [14, s.664-612]. Üçüncüsü, İran körpü kimi Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrini birləşdirərək, onların Fars körfəzinə çıxışını təmin edir. İranın şimal qonşularının mallarının, neft və qazının tranzitindən böyük gəlir əldə etmək imkanına malikdir [15].

İranın geosiyasətində digər daimi amil onun geniş ərazisidir. Siyasi anlamda ölkənin ərazisi milli qüdrətin elementlərindən biri hesab olunur və xarici siyasət yönümündə səmərəli rol oynayır. 1 milyon 648 min 195 kvadrat kilometr əraziyə malik İran dünyanın 16-cı ən böyük ölkəsidir. Coğrafi ərazi və əhalinin sayı İranı bölgədə güclü oyunçuya çevirir. Bu xüsusiyyət İranı bölgədə və hətta dünyada nüfuzlu ölkə olmağa təşviq

edir [11]. İranın coğrafi mövqeyi ilə sıx bağlı olan siyasətinə cavab olaraq, bölgə ölkələri İranın gücünün artmasına mane olmaq üçün balans yaratmağa çalışırlar. Balans yaradılması siyasəti dünyanın böyük dövlətləri ilə konfederasiya və hərbi ittifaq yaradılması, regiondan kənar ölkələrin bölgəyə birbaşa müdaxiləsində iştirak və Fars Körfəzi ölkələri Birliyi Şurası kimi İslam Respublikasına qarşı duran regional birliklərin formalaşdırılması yolu ilə həyata keçirilir [14, 664-612].

Beləliklə, bu amillər İran İslam Respublikasının ABŞ-a, Qərbdən asılı ərəb ölkələrinə, İsrailə və kapitalist yönümlü ölkələrə zidd olan regional milli özünüeyniləşdirməsinin yaranmasını şərtləndirmişdir. İran İslam Respublikasının Konstitusiyasının mətnində dünyaya dini çərçivədən baxış və İranın xarici siyasətinə təsir edən inanclar təsbitini tapmışdır. Konstitusiyanın bəzi prinsiplərinə müraciət etsək, görərik ki, İranın xarici siyasətində təşviq sistemi üstünlük təşkil edir.

3-cü fəslin 16-cı bəndində bütün dünya müsəlmanları qarşısında öhdəliklər sadalanır, ölkənin xarici siyasətinin bütün müsəlmanlarla qardaşlıq ittifaqının qurulması və dünya məzlumlarına təmənnasız dəstək kimi islami meyarlar əsasında işlənib hazırlanması nəzərdə tutulur.

11-ci maddədə islam millətlərinin ittifaqından və İslam aləminin birliyindən söz açılır:

*"Müqəddəs ayəyə görə, bütün müsəlmanlar vahid ümmətdir. İran İslam Respublikasının hökuməti İslam xalqlarının birliyinə əsaslanan ümumi siyasi xətti həyata keçirməlidir: o, İslam dünyasının siyasi, iqtisadi və mədəni birliyini təmin etmək üçün hər cür səy göstərməlidir" [20].*

152-ci, 153-cü və 154-cü maddələr İranın xarici siyasi əlaqələrinə həsr olunmuşdur.

Konstitusiyanın 152-ci maddəsində deyilir:

*"İran İslam Respublikasının xarici siyasəti İran üzərində və ya İran tərəfindən hər hansı hökmranlığın inkarına, bütün sahələrdə müstəqilliyin və ərazi bütövlüyünün qorunmasına, bütün müsəlmanların hüquqlarının qorunmasına və hegemon dövlətlər qarşısında öhdəlik götürməkdən imtinaya, İrana qarşı düşmən niyyətləri olmayan dövlətlərlə dinc münasibətlərə əsaslanır" [20].*

Konstitusiyada "hökmranlıq" sözü dünyanın böyük dövlətlərinin İrana təsiri və müdaxiləsi kimi işlədilir. Müsəlmanların hüquqlarının qorunması milli maraqlar sahəsinin İran ərazisi ilə məhdudlaşmadığını, qeyri-müsəlman dünyasına qarşı İslam dünyasının məcmusu olduğunu göstərir. "Müstəqillik" termini habelə böyük dövlətlərlə koalisiya yaradılmamasını ifadə edir. Bu fəsildə iranların dünyanın böyük dövlətləri ilə bağlı dərin tarixi inamsızlığı təsvir olunur.

Konstitusiyasının 152-ci maddəsi iranlıların tarixi təcrübəsini nəzərə alaraq, dünyanın böyük dövlətləri ilə ittifaqa mane olmağa çalışır, çünki iranlıların təcrübələrinə əsasən dünyanın böyük dövlətləri qarşılıqlı hörmətdə bərabər münasibətlərə riayət etmirlər.

153-cü maddədə deyilir:

*"Təbii və iqtisadi ehtiyatlar, mədəniyyət, ordu və dövlət həyatının digər sahələri üzərində xarici hökmranlığın qurulmasına gətirib çıxaracaq hər hansı müqavilə bağlamaq qadağandır" [20].*

Bu fəsildə "hökmranlıq" sözü mütəmadi olaraq təkrarlanır və əcnəbi (yadelli) anlayışı (sözü) ilə yanaşı qeyd olunur. İranda Qərb dövlətlərinin hərəkətləri mənfi xarakterli olduğundan, İran mədəniyyətində xarici sözlər ("yad" sözü) mənfi məna daşıyır və mədəniyyət, intellekt və siyasət baxımından müəyyən məsafə yaradır.

153-cü maddə iranlıların tarixi təcrübəsinə və İranın Qərblə mənfi qarşılıqlı təsiri əsasında yaradılmışdır. 154-cü maddədə deyilir:

*"İran İslam Respublikası bütün bəşər cəmiyyətində insan xoşbəxtliyinə nail olmağı öz idealı hesab edir və müstəqilliyi, azadlığı, hüquq və ədalətin üstünlüyünü dünyanın bütün xalqlarının hüququ sayır. Buna görə də İran İslam Respublikası, digər ölkələrin daxili işlərinə hər hansı müdaxilədən çəkinərək, bütün dünyaya məzlumların zalımlara qarşı ədalətli mübarizəsini dəstəkləyir" [20].*

Bəlkə də bu fəsil İranın xarici siyasətində daha radikal yanaşmaya səbəb ola bilər, çünki qlobal miqyasa yönəlmişdir. İran konstitusiyasının bu fəsli inqilabdan sonra bir neçə il ərzində daha geniş tətbiq olundu və İran fövqəldövlətlərin əleyhdarı olan müxtəlif azadlıq hərəkatlarının və siyasi qrupların liderləri üçün cazibə mərkəzinə çevrildi [28, s.614-612]. Bundan əlavə, İranın xarici siyasətində özünüeyniləşdirmənin elementləri Ayətullah Xomeyninin məşhur "Nə Şərq, nə Qərb, yalnız İslam Respublikası" şüarında ifadəsini tapmışdır. Sonralar bu şüar İran dövlətinin xarici siyasətində rəhbər göstərişə çevrildi. "Nə Şərq, nə Qərb" prinsipi bloklara qoşulmama və üçüncü dünyaya can atma diskursunun təsiri altındadır [3, s.529-533]. Buna görə də inqilabdan sonra ilk illərdə ölkənin xarici siyasətinin məqsədi Qərb və Şərqin iki fövqəlgücü ilə qarşıdurma idi, İranın xarici siyasətinin əsas yönümü isə böyük dövlətlərdən asılılıqdan imtinanı nəzərdə tuturdu. İranın "Nə Şərq, nə Qərb" siyasəti çərçivəsində atdığı ən əhəmiyyətli addımlar ABŞ-la diplomatik əlaqələrin kəsilməsi, Tehrandakı ABŞ səfirliyinin bağlanması və Sovet İttifaqı ilə 1921-ci il paktının 5-ci və 6-cı bəndlərinin ləğvi oldu. Bu bəndlərə görə, Rusiya İrandan təhlükəni hiss etdikdə ölkənin ərazi bütövlüyünü poza bilərdi. İranlılar bu bəndləri ləğv etməklə, "Tudə" kommunist partiyasını darmadağın etməklə hər iki fövqəlgücə bərabər şəkildə mənfi yanaşdıqlarını göstərdilər [33].

Professor Ruhullah Ramzani "Nə Şərq, nə Qərb, yalnız İslam Respublikası" şüarının həyata keçirilməsi baxımından İran İslam Respublikasının xarici siyasətinin analitik əsasını açıqlamışdır. Onun sözlərinə görə, İmam Xomeyninin məqsədi yeni hakimiyyət sistemi qurularkən İranın Şərqun sosialist modelini və ya Qərbin kapitalist modelini təqlid etmədiyini sübut etməkdən ibarət idi. Bu yanaşmanın əsas tərkib hissəsi yadellilərin hökmranlığından imtina və qlobal güc mərkəzlərindən müstəqillikdir [25]. Beləliklə, "Nə Şərq, nə Qərb" prinsipi iki əsas daxili hədəfi nəzərdə tutur: müstəqillik və yadellilərin hökmranlığına müqavimət. Lakin İranın xarici siyasətində "Nə Şərq, nə Qərb" yanaşması dünyada üçüncü (islami) qüvvənin yaradılmasını nəzərdə tuturdu. Bu qlobal gücün yaradılmasının başlanğıc nöqtəsi "İslam inqilabının dəyərlərinin xaricə ixracı" proqramı idi. Bu radikal siyasətin qəbul edilməsi, yəni İslam inqilabının dəyərlərinin

dünyanın müxtəlif bölgələrinə ixracı və dünya müsəlmanlarının qorunması, eləcə də azadlıq hərəkatlarının dəstəklənməsi fövqəldövlətlərdə güclü şübhələrin yaranmasına, islam ölkələri hökumətlərinin dərin narahatlığına səbəb oldu, bu da İrana beynəlxalq təcridə və təzyiqə məruz qalmasına gətirib çıxardı. Belə siyasətin nəticələrindən biri Səddam Hüseynin İrana hərbi müdaxiləyə təşviq edilməsi oldu. Aydındır ki, İranın məhdud imkanları ucbatından bu ölkə regionda istənilən nizama nail ola bilmədi, lakin özünün zəif nöqtələrini beynəlxalq sistemə göstərdi. Səkkiz illik İran-İraq müharibəsində yalnız ərəb ölkələri deyil, eyni zamanda Şərqin və Qərbin iki fövqəldövləti İraqı dəstəklədi. Səkkiz illik İran-İraq müharibəsinin ən əhəmiyyətli nəticələrindən biri İran hakimiyyətinin eyni anda bütün cəbhələrdə vuruşmağın mümkün olmadığını dərk etməsi idi [36, s.29-22]. Bu təcrübə İranın beynəlxalq sistemin tələblərinə müraciət etməsinə gətirib çıxardı. İranın xarici siyasətində ən mühüm dəyişikliklər Təhlükəsizlik Şurasının 598 saylı Qətnaməsinin qəbul edilməsi və İraqla müharibənin sona çatması, Küveytin İraq tərəfindən işğalı, yeni müstəqil Mərkəzi Asiya və Qafqaz ölkələri ilə bağlı Tehranın praqmatik siyasəti oldu [33, s.1023].

***Elmi-nəzəri konsepsiyaların idarəetməyə təsiri***

Konstruktivistlərin konsepsiyasına görə, aktorun və beynəlxalq sistem qarşılıqlı əlaqədədir, normaların beynəlxalq sistem üzərində üstünlüyü dövlətin xarici siyasətinin formalaşmasına təsir göstərir [8, s.337-338]. İİR normalara və beynəlxalq sistemə uyğun olaraq ikili siyasəti qəbul etdi. Öz prinsiplərinə əsaslanan və hökmran beynəlxalq sistemin strukturunu və normalarını qeyri-legitim hesab edən İran öz təhlükəsizliyini qorumaq üçün beynəlxalq tələbləri qəbul etdi. Başqa sözlə, İran İslam Respublikasının strategiyası beynəlxalq sistemin təsiri altında və onun struktur maneələrinə uyğun olaraq dəyişdi, hərçənd daxildə İslamın və İslam ideallarının üstünlüyü diskursu mövcud idi. O vaxtdan bəri İran dərk etdi ki, əsas düşməninə, yəni ABŞ-a və onun müttəfiqlərinə, ilk növbədə İsrailə qarşı digər ölkələrlə koalisiya siyasətini qəbul etməlidir. 1988-ci ildə İran-İraq müharibəsinin sona çatması və 1991-ci ildə SSRİ-nin dağılması buna zəmin hazırladı. Səkkiz illik İran-İraq müharibəsinin sona çatması İran və SSRİ-nin əməkdaşlığı yolunda əsas maneəni aradan qaldırdı. Əlbəttə, sovet qoşunlarının Əfqanıstandan çıxarılması da bu prosesə müsbət təsir göstərdi. 1989-cu ildə İran parlamentinin rəhbərinin Moskvaya səfəri iki ölkənin yaxınlaşma meylini göstərdi [4, s.46].

Beləliklə, Sovet İttifaqının dağılmasından sonra "Nə Qərb, nə Şərq" şüarının semantik məzmunu "ABŞ-nın hökmranlığından və birtərəfli yanaşmasından imtina" kimi dəyişdi. Başqa sözlə, bundan sonra ABŞ və İsrail rejimi ilə ideoloji düşmənçilik İranın xarici siyasətinin həlledici amilinə çevrildi. Lakin İran İraqla müharibədə qazandığı təcrübədən istifadə edərək, yeganə fövqəlgücə qarşı mübarizədə tərəfdaşa ehtiyac duyurdu. İranın yeni yanaşmasının gerçəkləşdirilməsi üçün ilk namizəd Rusiya Federasiyası oldu [33, s.1024]. Məhz bu səbəbdən İranın yeni müstəqil Mərkəzi Asiya və Qafqaz ölkələrinə münasibətdə xarici siyasəti daha praqmatik və ehtiyatlı idi. Amerika və İsrail alimi Brenda Şaffer ölkənin maddi və qeyri-maddi (mədəni) maraqları arasındakı mübahisədə birincilərə üstünlük verildiyini düşünür. O, İranın xarici siyasətində mədəniyyətin rolu

ilə bağlı etdiyi araşdırmasında bu ölkənin Qarabağ böhranına, Tacikistanda və Çeçenistanda vətəndaş müharibəsinə dair mövqeyinə toxunur və göstərir ki, İran bir tərəfi müsəlmanlar olan bu böhranlarla bağlı xarici siyasətində maddi maraqları əsas götürmüşdür [7, s.219-239]. Bu yeni yanaşma əsasən Rusiyanı əməkdaşlığı cəlb etməyə hesablanmışdı. İranla Rusiya ilə strateji əməkdaşlıq edə biləcəyi siyasət yürütməli idi. İran soyuq müharibədən sonra beynəlxalq sistemin yeni şərtlərinə qarşı dura bilmək üçün Rusiya ilə əməkdaşlığa ehtiyac duyurdu [33, s.1024].

Təcrübə göstərdi ki, İran İslam Respublikası xarici siyasətə yanaşmada dini amillə əlaqədar beynəlxalq sistemin realist mühiti və idealizm arasında yolayrıcında qalmışdı, müxtəlif dövrlərdə praqmatik və idealist yanaşma arasında tərəddüd edirdi. Bir tərəfdən İranın xarici siyasətinin təşviqi sistemi, digər tərəfdən beynəlxalq sistemin strukturu, siyasi coğrafiya və İranın iqtisadi və hərbi imkanları son 40 il ərzində İranın xarici siyasətinin öz diskurslarını dəyişməsinə gətirib çıxardı [29]. Buna baxmayaraq, İran hökumətinin dini yönümlü olması səbəbindən beynəlxalq sistemdə siyasi dəyişikliklərə və (və ya) İslam Respublikasında daxili dəyişikliklərə baxmayaraq, İranın davranışının rasional hesablar əsasında izah edilməsi mümkün deyil; fərqli nəticələrə baxmayaraq, İranın xarici siyasətinin prinsipləri və təbiəti sabit qalmışdır.

İranın beynəlxalq siyasət üzrə professoru Mahmud Sari Alqalam hesab edir ki, son on illikdə İslam Respublikasında yeni düzən qurulmuşdur, lakin hökumət dəyişikliyi xarici siyasət prinsiplərində dəyişiklik doğurmayacaqdır. O, İranın xarici siyasətinin fundamental dəyişikliklərə məruz qalmadığına inanır, hərçənd İranın xarici siyasətinin düşüncə sistemində ton və diskurs dəyişməsi tamamilə mümkündür [27, s.64-10]. Belə ki, beynəlxalq dəyişikliklərə əsasən, ötən otuz il ərzində İranın daxili dairələrində formalaşmış Qərbin təfsiri diskursu İranın milli maraqlarını təmin etmək üçün Qərblə ideologiyaya daha az bağlı xarici siyasət yeridilməsini və qarşılıqlı əlaqələri zəruri hesab edir. Lakin bu diskurs Amerika Birləşmiş Ştatları ilə münasibətləri normallaşdıra vaə İran üçün strateji alyansın mövcud olmaması problemini həll edə bilmədi, çünki ABŞ ilə münasibətlərin bərpasının ən mühüm hissəsi İran hökumətinin İsrailə münasibətində dəyişiklikdir. İranın kəşfiyyat, təhlükəsizlik, hərbi orqanlarında və bəzi siyasi orqanlarında dəyişiklik olmadan bu mümkün deyildir. Başqa sözlə ifadə etsək, İran ilə ABŞ arasındakı münasibətlərin normallaşması yolunda əsas maneələrdən biri İslam Respublikasında legitimliyi tanınmayan İsraildir. Əksinə, Fələstin xalqının dəstəklənməsi İran İslam Respublikasının xarici siyasətinin əsas məqsədlərindən biridir.Zülmkarlara qarşı mübarizə və məzlumları dəstəkləmək kimi məqsədlər İran hökumətinin dini yönümlü siyasətində mərkəzi mövqeyə malikdir. Son illərdə ədalət və müstəqilliyin qorunması mövzusu həm İranın nüvə fəaliyyətini həyata keçirməkdə israrını, həm də onun daha az çevik siyasətini izah edə bilər. Beləliklə, İslam ideologiyası İranın xarici siyasətinin işlənib hazırlanmasında böyük rol oynamışdır və “milli maraqlar” və “maddi nailiyyətlər” kimi ənənəvi meyarlardan istifadə İranın xarici siyasi fəaliyyətinin həyata keçirilməsində ikinci dərəcəli əhəmiyyətə malikdir. Əksinə, İranın xarici siyasətinin dərkinə “ideologiya”dan açar kimi istifadə edən yanaşma daha səmərəli görünür.

**Ədəbiyyat siyahısı**

1. Hunter, Sh. Iran's Foreign Policy in the Post-Soviet Era: Revising the New International Order / Sh. Hunter. – Oxford: Oxford Univ. Pr., 2010.
2. Morgenthau, H.J. Politics among Nations; the struggle for power and peace. New York, 1956.
3. Moshirzadeh, H. Discursive Foundations of Iran’s Nuclear Policy / H. Moshirzadeh// Security Dialogue. – 2007. Tehran. –№ 38(4).
4. Ramazani, R.K. Iran’s foreign policy: Both North and South/R.K. Ramazani//Middle East Journal. –1992.– №3 (46)
5. Sariolghalam, M .Understanding Iran: Getting past stereotypes and mythology /M.
6. Sariolghalam. – Washington: The Center for Strategic and International Studies and the Masachusetts Institute of Technology, 2001.
7. Shaffer, B. The Islamic Republic of Iran: Is It Really? The Limits of Culture: Islam and Foreign Policy /B. Shaffer. – Cambridge (Massachusetts): The MIT Press, 2006.
8. Wendt, A.The Agent-Structure Problem in International Relation Theory/A.Wendt//International Organization. 1987. Vol. 17. №9. P. 337–338. http://journals.cambridge.org/action/displayFulltext
9. ناريا يجراخ طباور .اضر ىلع ،يدنغزا .619 – 610 صص-. 6002 4160-4192 / رشن :نارهت-يدنغزا ،اضر ىلع سموق.Азганди, Э. Внешние отношения Ирана в 1320–1357 годах/ Э. Азганди. – Тегеран: Гаввас, 2008.
10. فقه سياسي )جلد سوم( / عباس علی، عميد زنجانی - تهران: انتشارات اميركبير،- .عميدزنجاني، عباس علی 4525 صص...Амидзанджани, Э.Э. Политический фикх / Э.Э. Амидзанджани.Т. 3. – Тегеран: Амир Кабир, 1989.
11. اطاعت، جواد. ژئوپلتيک و سياست خارجي ايران. جواد/ تهران، اطاعت: نشر سفير، -4552. ص.. Атаат, Дж. Геополитика и внешняя политика Ирана /Тегеран: Издательство Сафир.- 1996.
12. غني، سيروس. ايران: برآمدن رضاخان و برافتادن قاجار و نقش انگليسيها / سيروس، غنی - تهران: انتشارات نيلوفر، -. 6044 صص..91-15 Гани, С. Иран: взлет и падение Реза Хан Каджара и роль Британии/ С. Гани. – Тегеран: Нилуфар, 2011.
13. دهقانی فيروز آبادی، سيد جلال. گفتمان عدالت در سياست خارجي جمهوري اسلامي ايران / سيد جلال، دهقانی فيروز ابادی // تهران: فصلنامۀ معرفت سياسي -. 6040 -.451-492..ص 4. شمارۀ Дехгани, Д. Дискурс о справедливости во внешней политике Исламской Республики Иран/ Д. Дехгани // Политическое знание [Тегеран]:ж-л. – 2010. – №1.
14. منابع ملّي سياست خارجي جمهورياسلامي ايران / سيد جلال، دهقانی فيروز. دهقانی فيروز آبادی، سيد جلال ابادی // تهران:فصلنامۀ سياست -. -.6040شماره 1 .ص..664-612 Дехгани, Д. Национальные ресурсы внешней политики Исламской Республики Иран/Д. Дехгани. – Политика [Тегеран]: ж-л. – 2010. – №3.
15. اصغر، جعفری ولدانی. - تهران: انتشارات / جعفري ولداني، اصغر. روابط خارجي ايران بعد از انقلاب اسلامي آواي نور، -.6001 Джафари Валдани, А. Внешние отношения Ирана после Исламской Революции /Тегеран: Издательство Авайенур – 2004.
16. حسن پور، جميل.تاثيرايدئولوژي برسياست خارجي جمهوري اسلامي ايران درمقايسه با چين / & .ذاكريان، مهدی تهران: فصلنامه مطالعات سياسی، -. 6005 شماره .2 ص..41-16 // جميل. حسن پور &مهدی. ذاكريان Закрийан, М., Хасанпур, Дж. Влияние идеологии на внешнюю политику Исламской Республики Иран по сравнению с Китаем/ М. Закрийан, Д. Хасанпур // Политические исследования [Тегеран]: 2009. №6.

17. كاظمي، علی اصغر. ديپلماسي نوين درعصر دگرگوني در روابط بينالملل / علی اصغر، كاظمی - تهران: دفترنشر فرهنگ اسلام،-.4556 ص..15 Каземи, Э.А. Новая дипломатия в эпоху перемен в международных отношениях / Э.А. Каземи. – Тегеран: Исламская культура. 1992.
18. جهانگير. كرمی// تهران: فصلنامه راهبرد.- - / كرمي، جهانگير. سياست خارجي از منظر تكوينگرايي اجتماعي 6009ش .64صص. 421 - .420 Карами, Д. Внешняя политика с точки зрения социального развития/ Д. Карами // Стратегия [Тегеран]: ж-л. – 2005. – №21.
19. انتشاراتكوير، -.6000 : تهران - احمدتدين فارسی ترجمهبه .كاتم ريچارد، / ناسيوناليسمدرايران .كاتم،ريچارد 61..صКатм, Р. Национализм в Иране / Р. Катм; пер. на фарси А. Тадина. – Тегеран: Кавир, 2000.
20. 2010 آوریل ،2010 .قانون اساسی جمهوری اسلامی ایران http://worldconstitutions.ru/?p=83&page=4
21. عرب، منيره. بررسی جايگاه سياست خارجی در قانون اساسی ايران ) بررسی تطبيقی با & .مقصودی، مجتبی منيره. عرب // تهران: رهيافت سياسی &كشورهای آمريكا، فرانسه، هند، تركيه و افغانستان( / مجتبی. مقصودی و بين المللی.- -.6040 شماره . 45 ص..25 – 442 Максуди, М., Араб, М. Рассмотрение позиции внешней политики в Конституции Ирана (сравнительное рассмотрение со странами: США, Францией, Индией, Турцией и Афганистаном)/Политический и международный подход. – Тегеран. – 2010. – №19.
22. كاظمي، حسن. سازهانگاري، هويت، زبان و سياست خارجي جمهوري اسلامي ايران/ ابراهيم. &متقي، ابراهيم حسن. كاظمی //تهران: فصلنامۀ سياست-.6002 شماره 1. ص..605-612 &متقی Мотаки, А., Каземи, Х. Конструктивизм, идентичность, язык и внешняя политика Исламской Республики Иран/ А.Мотаки, Х. Каземи // Политика. – 2008. – №4.
23. مشيرزاده، حميرا. تحليل سياست خارجي جمهوري اسلامي ايران از منظر سازهانگاري / حميرا، مشير زاده. در كتاب نگاهي به سياست خارجي جمهوري اسلامي ايران، ويراستار: نسرين مصفا - تهران: دفتر مطالعات سياسي و بينالمللي،-. 6002 ص..66 Моширзадех, Х. Анализ внешней политики Исламской Республики Иран с точки зрения конструктивизма: взгляд на внешнюю политику Исламской Республики Иран / Х. Моширзадех; под ред. Н. Мосафы. – Тегеран: Офис политических и международных исследований, 2007.
24. 2004 ،چشم اندازهای ایران - 2025. - تهران.Перспективы Ирана – 2025. – Тегеран, 2004.
25. رمضانی، روح هللا.چارچوبی تحليلی برا ی بررسی سياست خارجی جمهوری اسلامی ايران/روح هللا، رمضانی. ترجمه: عليرضا طيب - تهران: نشر نی، -. 6002Рамзани, Р.К. Аналитическая основа для рассмотрения внешней политики Исламской Республики Иран/ . Рамзани // пер..на фарси: А. Тейб, 2008.
26. صادقی، احمد.تبارشناسی سياست خارجی جمهوری اسلامی ايران: جايگاه هويت فرهنگ و تاريخ /احمد. صادقی شماره 6005 .- -. فصلنامه سياست خارجی // تهران: .6 100- 619..ص Садеги, А. Генеалогия внешней политики Исламской Республики Иран: место сущности культуры и истории/ А. Садеги // Внешняя политика [Тегеран]: ж-л. – 2009. – № 2. –С. 206–262. (Сноска дана в переводе с фарси)
27. محمود. سريع القلم // تهران / سريعالقلم، محمود.سياست خارجی جمهوری اسلامی ايران: قابليت و امكان تغيير: فصلنامه روابط خارجی -. 6040 .- شماره.4 ص.64-10Сари Алгалам, М. Внешняя политика Исламской Республики Иран: способности и возможности изменений / М. Сари Алгалам // Международные отношения. – 2010. – №1.
28. فصلنامه :تهران //سريع القلم .محمود /جهانی شدن، حاكميت ملی و جمهوری اسلامی ايران .سريع القلم، محمود راهبرد.- -.6002شماره. 12 ص..614-612 Сари Алгалам, М. Глобализация, национальный суверенитет и Исламская Республика Иран/ М. Сари Алгалам //Стратегии [Тегеран]:ж-л. – 2006. – №36.

29. دیوید، فیلیپس. در کتابخاورمیانهوآمریکا، / فیلیپس،دیوید. آیااکنونزمانگفتگویجمهوریاس‌لامیایرانوآمریکاست؟ ویراستارداوودغرایاقزندي-6002 .-تهران:پژوهشکدهمطالعاتراهبردی، Филлипс, Д. Это время, чтобы обсудить Иран и США? / Д. Филлипс // Средний Восток и Америка / Под ред. Д. Гарайегзанди. – Тегеран: Ин-т стратегич. исследований, 2008.
30. : فرانکل،جوزف.روابطبینالمللدرجهانمتغییر/ جوزف، فرانکل.ترجمهبه فارسی عبدالرحمنعالم - تهران دفترمطالعاتسیاسیوبینالمللی،-.4554 460.ص Франкель, Д. Международные отношения в переменчивом мире/ Д. Франкель //пер. на фарси А. Абдул Рахман.– Тегеран: Офис политических и международных исследований, 1991.
31. ترجمه به فارسی عباس مخبر -تهران: نشر مرکز، - .فولر، گراهام.قبلهٔ عالم؛ ژئوپلیتیک ایران / گراهام، فولر ص..622 4555.Фуллер, Г. Центр вселенной: геополитика Ирана/ Г.Фуллер; пер. на фарси А. Мохбара. Тегеран:Марказ,1999.
32. نارهت - هشونا نسح یسراف هب همجرت.راوه ،ناملک / یناریا نّدمت و ناریا .ناملک ،راوه .424.640.ص -. ریبکريما تاراشتنا، 4529 Хавар, К. Иран и иранская цивилизация/ К. Хавар; пер. на фарси Х. Ануше. – Тегеран: Амир Кабир, 1985.
33. حاجی یوسفی،امیرمحمد. نظریه والتز و سیاست خارجی ایران: مطالعه مقایسه ای دوران جنگ سرد و پسا جنگ سرد / امیرمحمد. حاجی یوسفی// تهران: فصلنامه سیاست خارجی .- -.6001شماره. ص. .4009 -4010 Хаджи Юсефи, А.М. Теория Волтса и внешняя политика Ирана: сравнительное изучение периода холодной войны и после холодной войны/ А.М. Хаджи Юсефи// Внешняя политика [Тегеран]: ж-л. – 2003. – № 4.
34. نوذر، شفیعی،در کتاب روابط ایران و روسیه، / شفیعی، نوذر. روابط ایران و روسیه در پرتو تحوالت افغانستان ویراستار مهدی سنايی و جهانگیر کرمی-692-612 .صص 6005.- ،تهران: انتشارات ایراس Шафии, Н., Заманийан, Р. Понятие внешней политики с точки зрения теорий (реализма, либерализма и конструктивизма)/ Н. Шафии, Р. Заманийан // Политико-экономические сведения. – Тегеран. – 2012. – № 9.
35. پیوند آن با واقعگرايی و ابراهیمی ، شهروز. بررسی واسازانه نقش ایدئولوژی در سیاست خارجی ایران و آرمانگرايی / شهروز .ابراهیمی// تهران: 115.ص 1. شماره 6040 .- -.فصلنامه روابط خارجي-138 Эбрахими, Ш. Деструктивное рассмотрение роли идеологии во внешней политике Ирана и ее связь с реализмом и идеализмом/ Ш. Эбрахими // Внешние связи [Тегеран]: 2010. №4.
36. انوشیروان. احتشامی، ترجمه به فارسی متقی، / احتشامی، انوشیروان. سیاست خارجی ایران در دوران سازندگی ا. و پوستین چی، ز.تهران: مرکزاسناد انقلاب اسلامی، 6000 .-صص.22-29 Эхтешами, А. Внешняя политика Ирана в период становления/ А. Эхтешами //пер. на фарси: Э. Мотаги, З. Пустинчи. – Тегеран: Центр документов Исламской революции, 2000.